# TELEVİZİYADA BƏDİİ QİRAƏTİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ



hazır olmayan tamaşaçıya çatdırılması əsas yer tutur.

Konsertə əsasən məlumatı olanlar, artistin pərəstişkarları gəlir. Televiziyada isə artistin çıxışına bədii materialla tanış olmayanlar, bəzən onu heç tanımayanlar da baxırlar. Estrada səhnəsində çox da böyük olmayan auditoriyanın diqqətini yığmaq, idarə etmək nisbətən çətin deyil. Televiziyanın isə auditoriyası çoxmilyonlu və gözəgörünməzdir. Bu halda onun diqqətini necə idarə etmək olar? Materialın işlənməsində, ifa manerasında sözsüz ki, bütün bu spesifik xüsusiyyətlər nəzərə alınmalıdır.

Estradada çıxış etmək üçün professional qiraətçinin və yüksək səviyyəli bədii materialın olması çox şey deməkdir. Televiziyada isə bu iki komponentə hökmən üçüncünü də – ekran həllini də əlavə etmək lazımdır. Burada artistin görkəmi də, işıq da, fon da böyük əhəmiyyətə malikdir. Artistin planlarının dəyişməsi, ritmi, kompozisiyası, bunların başqa kadrlarla – qrafika, rəngkarlıq, müxtəlif konstruksiya və mənzərələrlə, fotolarla əvəz olunması sözün, fikrin dolğunluğu, obrazlılığını artırmaq üçün, qabartmaq üçün əvəzolunmaz vasitədir.

Bədii qiraətin əsas yaradıcılarından biri Vladimir Yaxontov sözlə təsirin ən mahir ifaçılarından biri idi. O, qeyd edirdi ki, elə bir incəsənət mövcuddur ki, burada aktyorla müəllif sanki bir adamdır. Bu sənət də bədii qiraətdir.

İnformasiya axınının çoxaldığı müasir dövrdə isə bədii qiraətçi qarşısında daha böyük problemlər durur: Müəllif tərəfindən qoyulan fikri anlamaq və özününküləşdirmək, fikir qırıqlığına yol evrmədən sözlərin ardıcıl düzümlülüyünü təşkil etmək, öz diksiyasını bu fikrə kökləmək və ən nəhayət, janlı tamaşaçı deyil, televiziyada kamera qarşısında onu ifa etmək. Ekrandakı təsvirlə tamaşaçı arasında əlaqəni yaratmağa nail olmaq. Bu gün bədii qiraətçinin qarşısında duran əsas məsələ budur.

İfaçı çalışmalıdır ki, söylədiyi fikrin müşahidəçisi deyil, onun iştirakçısı olsun və tamaşaçını da bu iştiraka cəlb etsin. Düzdür, onun üçün televiziyanın texniki imkanları böyükdür, lakin yenə də aparıcı qüvvə ifaçıdır. Tamaşaçı qarşısındakı çıxışda aktyor – ifaçı auditoriyadan asılı olaraq səsin qüvvəsindən, cestlərdən bol istifadə edir. Televiziyada isə bunlardan xəsisliklə istifadə edilməlidir.

Tanınmış televiziya tədqiqatçısı Sappak yazırdı: «Televiziya ekranına biz birinci növbədə baxırıq, sonra isə qulaq asırıq». Bu fikir ingilis telerecissoru Desmond Devisin fikriylə də səsləşir: «Qulaq və göz eyni zamanda müxtəlif şeyləri qavraya bilmir». Buradan belə bir nəticə çıxarmaq olar: bədii söz ekranda ancaq təsvirlə bağlı ifadəlilik təsirinə malik olur.

Bədii söz sənəti belə bir sintezdə yeni məna kəsb eləyir, xüsusi emosional atmosfer yaradır, tamaşaçıya ədəbi materialı yeni baxımdan qavramağa kömək eləyir.

«Klassik» qiraət manerasının televiziyada qəbul olunmamağını bu spesifik cəhətlərin mövcud olmağı ilə izah etmək olar.

Televiziyada iri plan aktyoru teatr qrimi – geyimi və cestlərindən əl çəkməyə vadar edir. Burada əsas ifadə vasitəsi daxili ritm, gözlərin ifadəsi və səsin düzgün quruluşudur.

Qeyd etmək lazımdır ki, aktyor ifası ekranda göstərilən köməkçi kadrları ancaq müşayiət etməməli, əksinə onları tamamlamalı və fikir bütövlüyü yaratmalıdır.

Ekrandan ancaq mövzunun səslənməsinə deyil, tamaşanın timsalında özünə həmsöhbət tapmasına nail olmaq lazımdır. Bu vəzifə isə bədii qiraətçinin üzərinə düşür.

Televiziyada şeri çox gözəl oxumaq hələ kifayət deyil. Çalışmaq lazımdır ki, deyilən fikrin obrazı tapılsın. Belə obraz hər şeydən əvvəl söz, intonasiya, ritmika vasitəsilə tapılır. Nitqin ifadəliliyi, plastika, intonasiyadakı incə xallar, görünməyən daxili hərəkət televiziyada iri plan və rekurslarla (hansı nöqtədən götürülənə) həll olunur. Böyük səhnədə ola bilsin ki, belə dəqiqlik nəzərə çarpmır.

Azərbaycan televiziyası bədii qiraət sahəsində müəyyən müvəffəqiyyətlər əldə edib: H.Turabov, S.Rzayev, M.Mirzəyev. Bunlar televiziyada bədii qiraətin spesifik xüsusiyyətləri ilə yaxından tanış olub tamaşaçı ilə «üz-üzə» söhbət etməyi, müəllif fikrini özününküləşdirib tamaşaçıya çatdırmağı bacaran aktyorlardandır. Gələcək aktyorlar da televiziyanın spesifik xüsusiyyətləri ilə tanış olmalı, kamera qarşısında çıxış etməyin sirlərinə bələd olmalıdırlar.

**Nadir Hüseynov,**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin baş müəllimi*